

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 221 (21.373)

*12 noyabr 2015-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 11-də BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Antonius Broeki diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul edib.

Antonius Broekin ölkəmizdəki uğurlu diplomatik fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı Birləşmiş Millətlər Təşkilatının yaradılmasının 70 illik yubileyi münasibətilə, BMT-nin Azərbaycanda müxtəlif sahələrdə layihələrin həyata keçirilməsində səmərəli fəaliyyətinə görə onun Azərbaycanın yüksək medalı olan "Tərəqqi" medalı ilə təltif edildiyini bildirib və medalı diplomata təqdim edib. Ölkəmiz ilə BMT arasında əməkdaşlığa toxunan Prezident İlham Əliyev tərəfdaşlığımızın səviyyəsindən və müxtəlif əhəmiyyətli layihələrin praktiki surətdə həyata keçirilməsindən məmnunluğunu ifadə edib.

Azərbaycanın "Tərəqqi" medalına layiq görüldüyünə görə dövlətimizin başçısına minnətdarlığını bildirən BMT-nin rezident əlaqələndiricisi Antonius Broek bunu onların fəaliyyətinə verilən yüksək qiymət kimi dəyərləndirib.

Görüşdə Azərbaycan ilə BMT arasında əməkdaşlığın bundan sonra da uğurla həyata keçiriləcəyinə əminlik ifadə olunub.

## Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 2015-ci il 1 noyabr tarixdə keçirilmiş seçkilərin yekunlarının rəsmi dərc edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının

## QƏRARI

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 31 avqust tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər təyin edilmişdir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə 2015-ci il 1 noyabr tarixdə keçirilən seçkilər başa çatdıqdan sonra seçkilər üzrə yaradılmış 45 seçki dairəsi və 316 seçki məntəqəsi tərəfindən tərtib edilmiş səsvermənin nəticələrinin müəyyən edilməsi haqqında protokollar Naxçıvan Muxtar Respublikasının Mərkəzi Seçki Komissiyasında yoxlanılmışdır. Yoxlama nəticəsində protokolların seçki komissiyaları üzvlərinin hamısı tərəfindən imzalandığı, heç bir xüsusi rəy olmadığı, seçkilərin qanunauyğun keçirildiyi müəyyən edilmişdir.

Dairə və məntəqə seçki komissiyalarından Mərkəzi Seçki Komissiyasına daxil olmuş protokollara əsasən seçici siyahılarında qeydə alınmış 268463 seçicidən 205166 nəfəri, yəni 76,4 faizi seçkilərdə iştirak etmiş, seçki qutularında olan seçki bülletenlərinin 203991 ədədi, yəni 99,4 faizi etibarlı sayılmış, 1174 bülleten, yəni 0,6 faizi etibarsız sayılmış, bülletenlərdən 9-u seçicilər tərəfindən korlanmış, 63288 bülleten isə istifadə edilmədiyi üçün ləğv edilmişdir.

Seçki sənədləri yoxlandıqdan sonra seçkilərin yekunlarının təsdiq edilməsi üçün Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 16-cı maddəsinə və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 93.2-ci maddəsinə uyğun olaraq seçkilərin ümumi yekunları haqqında Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının protokolu tərtib olunmuş və müvafiq Qərarı qəbul edilərək 2015-ci il noyabrın 5-də Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin 2015-ci il 10 noyabr tarixli Qərarına əsasən seçkilərin yekunları bütövlükdə təsdiq edildiyindən adları aşağıda qeyd olunan deputatlığa namizədlər beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmiş hesab olunmuşlar:

1 saylı Sədərək Seçki Dairəsi
Qasımov Arif Mikayıl oğlu

2 saylı Heydərabad Seçki Dairəsi
Əliyeva Vüsalə Abazər qızı

3 saylı Maxta Seçki Dairəsi
Həsənov Nüsrət Firudin oğlu

4 saylı Yengicə Seçki Dairəsi
Babayev Əmir Baxşəli oğlu

5 saylı Alışar Seçki Dairəsi
Tağıyev Asəf Tağı oğlu

6 saylı Çərçiboğan Seçki Dairəsi
Məhərrəmov Saleh Heydər oğlu

7 saylı Aralıq Seçki Dairəsi
Talıbov Vasif Yusif oğlu

8 saylı Düdəngə Seçki Dairəsi
Vəliyev Musa Məmməd oğlu

9 saylı Mahmudkənd Seçki Dairəsi
Möhbəliyev Telman Əli oğlu

10 saylı Şərur şəhər Seçki Dairəsi
Zeynalov Azər Yadulla oğlu

11 saylı Həmzəli Seçki Dairəsi
Məmmədova Yeganə Qurban qızı

12 saylı Yuxarı Daşarx Seçki Dairəsi
Talıbov Tariyel Hüseynəli oğlu

13 saylı İbadulla Seçki Dairəsi
Həsənli Oruc Qafar oğlu

14 saylı Danyeri Seçki Dairəsi
Əliyev Asim Yediyar oğlu

15 saylı Qarabağlar Seçki Dairəsi
Quluyeva Sevda Rüstəm qızı

16 saylı Qıvraq Seçki Dairəsi
İbrahimov Anar Adil oğlu

17 saylı Çalxanqala Seçki Dairəsi
Məmmədov Ehtimad Cəfər oğlu

18 saylı Nehrəm Seçki Dairəsi
Niftəliyev Hüseyn Əsrafil oğlu

19 saylı Babək qəsəbə Seçki Dairəsi
Məmmədov İsa Mustafa oğlu

20 saylı Yarımca Seçki Dairəsi
Allahverdiyeva Həbibə Rəşad qızı

21 saylı Məzrə Seçki Dairəsi
Seyidov Mirhəşim Əhməd oğlu

22 saylı Şıxmahmud Seçki Dairəsi
Məmmədli Turan Bəymməmməd qızı

23 saylı Cəhri Seçki Dairəsi
Səfərli Hacıfəxrəddin Yəhya oğlu

24 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Abbasov Məhərrəm Hüseyn oğlu

25 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Talıbov Seymur Vasif oğlu

26 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Cəfərli Elman Yusif oğlu

27 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Rzayeva Yazgül Həsənəli qızı

28 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Əliyev İsmayıl İsrafil oğlu

29 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Allahverdiyeva Aidə Məhərrəm qızı

30 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Məmmədov Namiq Qəzənfər oğlu

31 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Məmmədov Nazim Məmməd oğlu

32 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Babəbəyli Nazim Səfərəli oğlu

33 saylı Naxçıvan şəhər Seçki Dairəsi
Əzimov Behruz Nurəddin oğlu

34 saylı Şahbuz şəhər Seçki Dairəsi
Məmmədov Rizvan Təmo oğlu

35 saylı Kolanı Seçki Dairəsi
İsmayılov Cəbi Əziz oğlu

36 saylı Şahbuzkənd Seçki Dairəsi
Dünyamalıyev Qoçəli İsa oğlu

37 saylı Culfa şəhər Seçki Dairəsi
İbrahimov Qadir Abbas oğlu

38 saylı Yaycı Seçki Dairəsi
Fərəcov Fərəc Rza oğlu

39 saylı Ərəzin Seçki Dairəsi
Əliyev Tahir Rza oğlu

40 saylı Saltaq Seçki Dairəsi
Həşimli Hüseyn Məmməd oğlu

41 saylı Ordubad şəhər Seçki Dairəsi
Rzayev Qurbət İsmayıl oğlu

42 saylı Ordubad şəhər Seçki Dairəsi
Zeynalov Eldar Əhməd oğlu

43 saylı Yuxarı Əylis Seçki Dairəsi
Cəfərli Əhəd Məmməd oğlu

44 saylı Vənənd Seçki Dairəsi
Babayev Tofiq Süleyman oğlu

45 saylı Aza Seçki Dairəsi
Mustafayeva İlhamə Rafiq qızı

Yuxarıda göstərilənlərə, "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 20.4-cü, 20.9-cu, 23.3-cü, 24.1.7-ci maddələrinə və Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsi Rəyasət Heyətinin 2015-ci il 10 noyabr tarixli Qərarına əsasən Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**QƏRARA ALIR:**

2015-ci il noyabrın 1-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş seçkilərin nəticələri dərc edilməsi üçün "Şərq qapısı" qəzetinə və elan olunması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Televiziya və Radio Verilişləri Komitəsinə göndərilsin.

**Sədr:** **Məhərrəm Qasımov**
**Katib:** **Elnur Eyvazov**

11 noyabr 2015-ci il

## "Ümummilli lider Heydər Əliyev və Azərbaycan konstitusionalizmi" mövzusunda elmi-praktik konfrans

***Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının təşəbbüsü ilə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Azərbaycan Respublikası Konstitusiyasının qəbul edilməsinin 20 illiyi münasibətilə "Ümummilli lider Heydər Əliyev və Azərbaycan konstitusionalizmi" mövzusunda elmi-praktik konfrans keçirilib.***



Konfransı giriş sözü ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərli açıb.

Heydər Əliyev adına tam orta məktəbin müəllimi, partiya arazi ilk təşkilatının sədri Könül Mirzəyeva "Ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası" mövzusunda çıxış edib.

"Naxçıvan Muxtar Respublikasının Konstitusiya təcrübəsi tarixi" mövzusunda çıxış edən Elman Cəfərli unitar Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsi olan Naxçıvan muxtariyyətinin XX əsrdə idarə olunmasının hüquqi bazasının 1924-cü ildə qəbul edilmiş "Naxçıvan SSR haqqında Əsasnamə"nin, 1926, 1937 və 1978-ci illərdə qəbul edilmiş üç Konstitusiyanın təşkil etdiyini bildirib. XX əsrin sonunda, Azərbaycanın müstəqillik dövrü Konstitusiyası qəbul edildikdən dərhal sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərlik etdiyi komissiya tərəfindən Naxçıvan Muxtar Respublikasının Konstitusiyasının layihəsi hazırlanıb və Azərbaycan Respublikası Konstitusiyasının layihəsini hazırlayan komissiyanın iclasında ulu öndər Heydər Əliyevin sədrliyi ilə dörd dəfə müzakirə olunaraq təkmilləşdirilib. Muxtar dövlətin 6 fəsil, 50 maddədən ibarət Konstitusiyası 1998-ci il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilib.

"Milli Konstitusiyamız ölkəmizin inkişafının əsas mənbəyidir" mövzusunda çıxış edən Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının baş təlimatçısı Tural Rzayev qeyd edib ki, milli Konstitusiya dövlətçilik tariximizdə yeni mərhələ açıb, hüquqi, demokratik dövlət quruculuğunda, sosial-iqtisadi və ictimai-siyasi həyatda dinamik inkişafı təmin edən islahatların dərinləşməsinə, hakimiyyət bölgüsü prinsipini, insan hüquq və azadlıqlarının üstünlüyünü təsbit edərək Azərbaycanın çox qısa zaman kəsiyində bölgənin lider dövlətinə çevrilməsinə imkan yaradıb.

Konfransa Yeni Azərbaycan Partiyası Naxçıvan Şəhər Təşkilatının sədri Elman Cəfərli yekun vurub.

Sonda konfrans iştirakçıları Heydər Əliyev Muzeyindəki eksponatlara baxıblar.

**Rauf ƏLİYEV**

**Ulu öndər Heydər ƏLİYEV:** ***Bu gün biz Azərbaycanın bu günü, gələcəyi üçün çox mühüm bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq. Bizim Konstitusiya layihəsinin ən mühüm əhəmiyyəti ondan ibarətdir ki, xalqımızın, respublikamızın tarixində bu, ilk, tamamilə sərbəst, müstəqil şəkildə yaranmış Konstitusiyadır. Konstitusiya layihəsi indiyə qədər olan bütün konstitusiyaların, qanunların hamısından fərqlənir. Ona görə fərqlənir ki, bu, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasıdır.***

## 12 Noyabr Konstitusiya Günüdür

# Azərbaycan Respublikasının Konstitusiyasının qəbulundan 20 il ötür

***Azərbaycan Respublikası Konstitusiyasının hazırlanması və qəbulu ümummilli lider Heydər Əliyevin xalqımız qarşısındakı misilsiz xidmətlərindən biridir. Ölkəmizdə sivil, hüquqi və demokratik dövlət quruculuğunun, vətəndaş cəmiyyətinin formalaşmasının təməlində məhz Azərbaycan Respublikasının Konstitusiyası dayanır.***

Ümummilli liderin 1993-cü ildə xalqın təkidli tələbi ilə ölkə rəhbərliyinə qayıdışından sonra Azərbaycanda siyasi sabitlik bərqərar olundu və ölkə həyatının bütün sahələrində irimiqyaslı islahatların həyata keçirilməsi üçün real şərait yarandı. Xalqımızın böyük oğlu ölkənin hüquq sistemində mövcud olan qeyri-müəyyənliyin aradan qaldırılmasında, Azərbaycan Respublikasının daxili və xarici siyasi prioritetlərinin müəyyənləşdirilməsində müstəsna əhəmiyyət kəsb edən Konstitusiyanın qəbulunu zəruri məsələlər sırasına çəkdi, 1995-ci ildə Konstitusiya Komissiyası yaradıldı. Ölkənin təcrübəli hüquqşünaslarının, alimlərinin toplaşdığı komissiyanın ilk iclasında ulu öndər Əsas Qanunumuzu son dərəcə mükəmməl, gələcəyə hesablanmış, sanballı bir sənəd kimi hazırlamağı tövsiyə edərək demişdir: ***"Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən Əsas Qanun, tarixi sənəd olsun".***

Beləliklə, 1995-ci il noyabrın 12-də Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək, bütün cəmiyyətin və hər kəsin firavanlığının təmin edilməsini arzulayaraq, ədalətin, azadlığın və təhlükəsizliyin bərqərar edilməsini istəyərək, keçmiş, indiki və gələcək nəsillər qarşısında öz məsuliyyətini anlayaraq ümumxalq səsverməsi – referendum yolu ilə öz Konstitusiyasını qəbul etdi. Əsas Qanunumuzun qəbulu cəmiyyət həyatında demokratik dəyişikliklərə böyük yol açdı, insan hüquq və azadlıqlarının həyata keçirilməsi üçün əlverişli şərait yaratdı, ölkədə müasir dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu tələblərinə cavab verən dövlətçiliyin formalaşması işində mühüm addım oldu.

Dövlət müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq, demokratik quruluşa təminat vermək, vətəndaş cəmiyyətinin bərqərar edilməsinə nail olmaq, qanunların aliliyini təmin edən hüquqi, dünyəvi dövlət qurmaq, hamının layiqli həyat səviyyəsini təmin etmək, ümumbəşəri dəyərlərə sadiq qalaraq digər xalqlarla dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamaq kimi ülvi niyyətlərin bəyan olunması Azərbaycan Respublikasının Konstitusiyasının ali dəyərlərini ortaya qoyur. Müqəddəratını sərbəst və müstəqil həll etməyi, eləcə də öz idarəetmə formasını müəyyənləşdirməyi xalqın suveren hüququ kimi tanıyan Konstitusiya Azərbaycan dövlətini hakimiyyətin bölünməsi prinsipi əsasında təşkil edilən demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edərək ənənəvi hüquqi dövlət ideyalarını özündə əks etdirir.

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsini ali məqsədi elan edərək bu hüquq və azadlıqların qorunmasını dövlət hakimiyyəti orqanlarının əsas vəzifəsi kimi müəyyən etmişdir. 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət olan Konstitusiyamızın üçdəbir hissəsinin insan və vətəndaş hüquq və azadlıqlarına həsr olunması bunu bir daha təsdiq edir. Əsas Qanunun ən böyük fəsli olan üçüncü fəsildə insan və vətəndaş hüquqlarının və azadlıqlarının əsas prinsipi, onların reallaşdırılması mexanizmləri nəzərdə tutulmuşdur.

Konstitusiyanın qəbulundan sonra ölkəmizdə aparılan hüquqi islahatlar müasir məhkəmə sisteminin formalaşmasına, Konstitusiya nəzarəti funksiyasını həyata keçirən xüsusi məhkəmə qurumunun yaradılmasına, insan hüquqları üzrə müvəkkil institutunun təsis olunmasına, hüquqmühafizə orqanlarının fəaliyyətinin daha da təkmilləşdirilməsinə təkan vermiş, insan haqlarının təmin edilməsi sahəsində səmərəli hüquqi müdafiə mexanizmlərinin yaranmasına şərait yaratmışdır. Bununla da, ölkəmizdə genişmiqyaslı məhkəmə-hüquq islahatları aparılmış, həmin islahatlar nəticəsində müstəqil məhkəmə hakimiyyətinin yaradılması üçün zəruri qanunvericilik bazası formalaşdırılmış, yeni üçpilləli məhkəmə sistemi təsis olunmuş, məhkəmə hakimiyyətinin müstəqilliyinin və hakimlərin statusunun əsasları qanunvericilikdə təsbit edilməklə onların fəaliyyəti üçün zəruri şərait yaradılmışdır. Nəticədə, məhkəmə icraatında demokratik prinsiplərin həyata keçirilməsini təmin etmək mümkün olmuşdur. Həmçinin Azərbaycan tarixində ilk dəfə olaraq Konstitusiya nəzarəti orqanı olan Konstitusiya Məhkəməsinin hüquqi statusu müəyyənləşdirilmişdir.

Konstitusiyaya uyğun olaraq, Azərbaycanda demokratiyanın inkişafında yeni bir idarəçilik institutu – yerli özünüidarə orqanları formalaşdırılmış, bələdiyyələrin statusu konstitusion müstəvidə təsbit edilmiş, onların fəaliyyətini tənzimləyən zəruri hüquqi aktlar qəbul olunmuşdur.

Azərbaycan Respublikasının hüquq sisteminin beynəlxalq arenaya inteqrasiyasının sürətləndiyi bir vaxtda konstitusion islahatların aparılması zərurətə çevrilmişdir. Məhz bu zərurətdən qaynaqlanaraq ölkəmizdə ümumxalq səsverməsi keçirilməklə 2002-ci il avqustun 24-də Konstitusiyanın 24 maddəsinə, 2009-cu il martın 18-də isə 29 maddəsinə əlavələr və dəyişikliklər edilmişdir. Bu əlavə və dəyişikliklər Konstitusiyanın, bütövlükdə hüquq sisteminin, habelə insan hüquqlarının daha səmərəli müdafiə edilməsi mexanizmlərinin təkmilləşdirilməsindən, ölkəmizin beynəlxalq hüquqi sənədlərə qoşulmasından qaynaqlanmışdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Respublikası Konstitusiyasının 20 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətində demişdir: ***"Konstitusiyanın qüvvədə olduğu 20 illik dövr ərzində onun müddəalarının həyata keçirilməsində böyük təcrübə toplanmış, bu sənəddə əks olunmuş konsepsiyalar inkişaf etdirilərək güclü sosial dövlətin, yüksəkrəqabətli iqtisadiyyatın qurulmasına, insan hüquqlarının effektiv müdafiəsi mexanizmlərinin tətbiqinə təkan verən çoxsaylı normativ-hüquqi aktlar qəbul edilmişdir... Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir".***

Əsas Qanunumuzun mütərəqqi cəhətlərindən biri də Konstitusiyanın səkkizinci fəslinin Naxçıvan Muxtar Respublikasının statusuna həsr olunmasıdır. Bu fəsildə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi tanınmış, muxtar respublikada hakimiyyətlərin bölgüsü təsbit olunaraq onların hər birinin səlahiyyət hüdudları müəyyənləşdirilmişdir.

Konstitusiyamızın qəbulundan sonra Naxçıvan Muxtar Respublikasının 6 fəsil, 50 maddə və keçid müddəalarından ibarət olan Konstitusiyası hazırlanmış, Azərbaycan Respublikası Milli Məclisinin 1998-ci il 29 dekabr tarixli konstitusiya qanunu ilə təsdiq edilərək 1999-cu il yanvarın 8-də qüvvəyə minmişdir. Bu Konstitusiyanın qəbulu siyasi-hüquqi əhəmiyyətinə görə nəinki muxtar respublikada, bütövlükdə ölkəmizdə mühüm əlamətdar hadisəyə çevrilmiş, beynəlxalq təcrübədə nümunəvi model kimi dövlət idarə etməsinin təşkilinin mükəmməl hüquqi bazasını yaratmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov muxtar respublikanın yeni Konstitusiyasını əvvəlki konstitusiyalardan fərqləndirərək demişdir: ***"Naxçıvan MSSR-in 1978-ci il Konstitusiyasından fərqli olaraq bu Konstitusiyada muxtar respublikanın statusu və onun Azərbaycan Respublikasının Konstitusiyası, Moskva və Qars beynəlxalq müqavilələri ilə müəyyən edilməsi daha aydın görünür. Hakimiyyət bölgüsü, mülkiyyət formaları əvvəlki Konstitusiyaya görə daha dəqiq və genişdir".***

Ötən illər ərzində Naxçıvan Muxtar Respublikasının Konstitusiyasına bir sıra mütərəqqi əlavə və dəyişikliklər edilmişdir. Bu dəyişikliklər Naxçıvan Muxtar Respublikasında dövlət quruculuğu sahəsində islahatların həyata keçirilməsi, Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatının yaradılması, ali dövlət hakimiyyəti orqanlarının səlahiyyətlərinin dəqiqləşdirilməsi ilə bağlı olmuşdur.

Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarının qəbulundan ötən müddət ərzində ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti, insan hüquq və azadlıqlarının təmin olunması sahəsində mühüm addımlar atılmış, bütün sahələri əhatə edən yüzlərlə qanunvericilik aktları qəbul edilmiş və bununla da, mükəmməl qanunvericilik bazası formalaşdırılmışdır.

***Konstitusiyanın qəbul edilməsinin 20-ci ildönümü xalqımız tərəfindən böyük qürur və iftixar hissi ilə qeyd olunur. Bu dövr ərzində bir çox sahələrdə əldə edilmiş nailiyyətlər dövlətimizin sivil ölkələr ailəsinin tamhüquqlu üzvü olmasına əsas yaratmışdır. Ölkə başçısının Konstitusiya əsasında ölkəmizin modernləşməsinə yönəlmiş siyasəti hər bir vətəndaşın rifahını daha da yüksəldəcək və bu ali normativ-hüquqi sənəd bundan sonra da müstəqil dövlətimizin demokratik inkişaf hədəflərini müəyyənləşdirəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***

# Konstitusiya Gününə həsr olunmuş konfrans

***Noyabrın 10-da Konstitusiya Gününə və Milli Fəaliyyət Proqramının 2015-ci ildə icra vəziyyətinə həsr olunmuş konfrans keçirilmişdir.***



Konfransı giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova açaraq məruzə etmişdir.

Bildirilmişdir ki, Konstitusiyada yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar çox geniş şəkildə öz əksini tapmış, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədi kimi bəyan edilmişdir. Konstitusiyanın qəbulu ölkədə hüquqi islahatların keyfiyyətcə yeni mərhələsinin başlamasına təkan vermişdir. İnsan hüquq və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər sırasında ümummilli lider Heydər Əliyevin 22 fevral 1998-ci il tarixli "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanını və 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nı xüsusilə qeyd etmək lazımdır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı" insan hüquqlarının müdafiəsinin daha səmərəli təşkilinin konsepsiyasını müəyyən etmişdir.

Ötən dövr ərzində ölkəmizdə insan hüquq və azadlıqları sahəsində həyata keçirilən islahatların, qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin Naxçıvan Muxtar Respublikasında da uğurla həyata keçirildiyini bildirən Ülkər Bayramova demişdir ki, muxtar respublikada insan hüquqları daim diqqət mərkəzində saxlanılır, Milli Fəaliyyət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası ardıcıl davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov "Azərbaycan Respublikası Konstitusiyasında Naxçıvan Muxtar Respublikasının statusu" mövzusunda məruzə edərək bildirmişdir ki, Azərbaycan Respublikası Konstitusiyasının 134-cü maddəsinə əsasən, Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikası Konstitusiyası ilə müəyyən edilmişdir. Konstitusiyaya görə Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir.

Naxçıvanın muxtariyyəti özünəməxsusluğu ilə fərqlənir. İlk fərq ondan ibarətdir ki, bu, milli yox, ərazi muxtariyyətidir. Yəni Naxçıvan Muxtar Respublikası Azərbaycanın əsas ərazisindən tam təcrid olunmuş "anklav" ərazi kimi geopolitik əsasa görə yaranmışdır.

Naxçıvanın muxtariyyətinin ən mühüm özünəməxsusluğundan biri də onun statusunun təkcə milli qanunvericiliklə yox, həm də beynəlxalq müqavilələrlə (16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars) təsdiq edilməsi və ona beynəlxalq hüquqi təminat verilməsidir.

1995-1999-cu illər Naxçıvanın muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi baxımından əlamətdar olmuşdur. 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasının statusu Azərbaycan Respublikasının tərkibində muxtar dövlət kimi müəyyənləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikasının yeni Konstitusiyasının Naxçıvan Muxtar Respublikası Ali Məclisində 28 aprel 1998-ci il tarixdə qəbul olunduğunu və bu Konstitusiyanın 29 dekabr 1998-ci il tarixdə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edildiyini diqqətə çatdıran Cəlil Rüstəmov bildirmişdir ki, Naxçıvanın dövlətçilik tarixində ilk dəfə olaraq hamılıqla qəbul edilən, ideoloji əsaslardan arındırılmış, demokratik prinsip və dəyərlərə uyğun qəbul edilən bu Konstitusiya muxtariyyət tarixində əldə edilmiş ən böyük nailiyyətlərdən biridir. Bütün sivil və müasir konstitusiyalar kimi, Naxçıvan Muxtar Respublikasının Konstitusiyası da insan və vətəndaş hüquq və azadlıqlarına təminat vermişdir.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyasında heç bir maddə Azərbaycan dövlətinin unitarlıq prinsipi ilə ziddiyyət təşkil etmir. Əksinə, Naxçıvanın coğrafi-siyasi mövqeyinə və demokratik prinsiplərə uyğun gəlməklə onun ölkə ərazisi kimi mövcudluğunu hüquqi cəhətdən müəyyən edir, idarəçilikdə operativ qərarlar qəbul etməyə imkan verir. Digər tərəfdən Naxçıvanın muxtariyyət statusuna malik olması onun təhlükəsizliyi üçün təminat olmaqla, Naxçıvanın inkişaf etməsinin əsas şərtlərindən biridir.

Vurğulanmışdır ki, Əsas Qanunumuz müstəqilliyimizin qorunub möhkəmləndirilməsində, respublikamızın sürətli inkişafında və beynəlxalq aləmdə nüfuzunun artmasında hüquqi baza rolunu oynayır. Odur ki, Konstitusiyanın qəbulu günü dövlət bayramı kimi xalqımız tərəfindən böyük sevinclə qeyd olunur.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin hakimi Polad Həsənovun "Konstitusiya nəzarətinin mahiyyəti: Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi muxtar respublikada Konstitusiya nəzarətini həyata keçirən orqan kimi" və Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və informasiya şöbəsinin rəisi Faiq Səfərovun "Milli Fəaliyyət Proqramı: Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində həyata keçirilən tədbirlərin davamlılığını təmin edən sənəd kimi" adlı məruzələri dinlənilmişdir.

Məruzələr ətrafında Naxçıvan Muxtar Respublikası daxili işlər nazirinin müavini, polis general-mayoru Qaçay Quliyevin, ədliyyə nazirinin müavini, baş ədliyyə müşaviri Elnur İsmayılovun, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Qadir Əliyevin çıxışları olmuşdur.

Tədbirə Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova yekun vurmuşdur.

***Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının mətbuat xidməti***

# Ən ali dəyərimiz milli dövlətçiliyimizdir

## *Milli dəyərlərin yaşadılması Naxçıvanda strateji məsələ kimi qarşıya qoyulub*

***Milli dəyərlərə konkret nəzəri tərif vermək mümkün olmasa da, bu dəyərlərin cəmiyyət üçün ən qiymətli miras olduğu danılmazdır. Bəşər mədəniyyətinin tarixi keçmişini araşdıran tədqiqatçılar sübut edirlər ki, istənilən cəmiyyətdə dəyərlərin yaradıcısı xalqdır. Təbii ki, hər bir xalqın tarixi və etnoqrafiyası, mədəniyyəti, cəmiyyətin inkişafına baxışı fərqli və yaxud qismən fərqli olsa da, bu, özlüyündə ümumi bir dəyərlər sistemi formalaşdırır. Məhz bu sistemdə onun dövlətçilik ənənələri formalaşır, həyata baxışı zənginləşir, gələcək inkişafının təməli qoyulur. Buna görə də milli dəyərlər məfhumunu dar çərçivədə düşünmək mümkünsüzdür.***



Dünya xalqlarının bir çoxunda müəyyən zamanlarda bu və ya digər dərəcədə dəyərlərin aşınması prosesi getmişdir. Və bu prosesdə yalnız milli və mənəvi dəyərlərə mental bağlılıq xilas yolu kimi seçilmişdir. Yadımıza salaq, ötən əsrin 90-cı illərində SSRİ-nin süqutundan sonra müstəqilliyini elan etmiş respublikaların, demək olar ki, hamısında, eləcə də Azərbaycanda kütləvi Qərb dəyərlərinin idxalına başlanılmışdı. O zaman çoxları bu təhlükəli tendensiyanın fərqinə varmırdı. Qapalı imperiyanın süqutundan sonra sərhədlərin açılması, digər ölkələrlə əlaqələrin yaradılması təkcə iqtisadi və mədəni baxımdan deyil, eyni zamanda sosial, dini, mənəvi tərəfləri ilə də diqqət çəkirdi. Artıq qloballaşma dövrü başlamışdı. Əslində, qloballaşma fərqli tarix və mədəniyyətlərə, dəyərlərə malik ölkələrin bir-biri ilə qarşılıqlı münasibətləri baxımından çox əhəmiyyətli inteqrativ prosesdir. Ancaq dəyərlərin belə siyasiləşdiyi müasir dünyada qloballaşma bəzən elə bir vasitəyə çevrilir ki, yeniliklərin qəbulu mental bağlılıqların deqradasiyaya uğraması hesabına baş verir. Doğrudur, bu proses ani olmur, bəzən onilliklərə başa gəlir. Xalqa mənsub milli dəyərlərin qorunub saxlanması və onun bəşəri dəyərlərlə çulğalaşması ən gözəl nümunədir.

Ötən əsrin sonlarında Naxçıvan Muxtar Respublikasının blokadaya salınması buradakı ictimai-siyasi və iqtisadi vəziyyəti ağırlaşdırmışdı. Ümummilli lider Heydər Əliyevin Naxçıvana qayıdışı və buradakı fəaliyyəti nəticəsində əhalinin həyat şəraiti yaxşılaşdırılmış, ən əsası isə bu qədim Azərbaycan diyarı işğal təhlükəsindən qorunub saxlanılmışdır. Ulu öndər burada fəaliyyət göstərdiyi dövrdə təkcə hərbi, siyasi, iqtisadi sahədə deyil, eyni zamanda milli dövlətçilik ideyalarının həyata keçirilməsində əvəzsiz xidmətlər göstərmişdir. Dahi şəxsiyyət onu gözəl bilirdi ki, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir. Çünki milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli kökə bağlı dəyərlərin qorunmasına xidmət edir. Buna görə də ulu öndər Heydər Əliyevin Naxçıvanda müstəqil Azərbaycanın dövlət quruculuğu sahəsində atdığı tarixi addımlar, qəbul etdiyi mühüm qərarlar gələcəyimizin milli dövlətçilik təmələri üzərində inkişaf etdirilməsini şərtləndirdi. Milli dövlət isə onunla səciyyələnir ki, kimlərinsə milli dəyərləri öz qanı bahasına qoruyub-saxlamasına ehtiyac qalmır. Çünki o, elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və inkişaf etdirilir.

Milli dəyərlərin mühafizəsi, yaşadılması və təbliğ olunması yalnız milli düşüncənin ön sırada olduğu zaman mümkün ola bilər. Yalnız milli ruha hakim rəhbər öz xalqının keçmişini qorumaq və gələcəyə daşıya bilmək gücünə qadirdir. Bu gücün təməlində isə xalqa bağlılıq, doğma mədəniyyətə hədsiz sevgi durur. Çünki istənilən xalqın mədəniyyətində onun illərdən bəri formalaşmış düşüncə və təfəkkürü, dünyaya baxış tərzi, yaradıcılığı, adət-ənənələri, dəyərləri toplanır. Buna görə də bu cür dəyərlərimizin qorunub saxlanılması, inkişaf etdirilməsi muxtar respublikamızda aparılan dövlət mədəniyyət siyasətinin əsas vəzifələrindən biri kimi qəbul olunmuşdur.

Hamımıza məlumdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisi dünyanın qədim yaşayış məskənlərindən biridir. Ərazinin qədimliyi burada tarix və mədəniyyətin zənginliyini göstərir. Məhz bu amil nəzərə alınaraq Naxçıvanda tarixi abidələrin tədqiqinə, əsaslı bərpa və təmirinə, arxeoloji qazıntıların aparılmasına ciddi diqqət göstərilir. Görülən işlərin nəticəsi kimi, tarixi abidələr qeydiyyata alınaraq pasportlaşdırılmış, Naxçıvan tarixindən bəhs edən fundamental əsərlər yazılaraq nəşr olunmuş, beynəlxalq konfrans və simpoziumlar keçirilmişdir.

Hər bir xalqın yaradıcılığı onun milli mədəniyyətini əks etdirir. Bu mənada, "mədəniyyət" və "xalq yaradıcılığı"na sinonim ifadələr kimi də baxmaq olar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamı bu diyarda formalaşmış milli və mədəni dəyərlərimizin çoxsaylı nümunələrinin tədqiqi, yaşadılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Bu sərəncamın imzalanması ilə muxtar respublikada çoxsaylı tədbirlər həyata keçirilmiş, müxtəlif uşaq musiqi məktəblərində qədim musiqi alətlərimizin, xalq mahnılarımızın təbliğinə geniş yer verilmişdir. Muxtar respublikanın rayonlarında yeni xalq teatrları, yallı kollektivləri yaradılmışdır. Xalq yaradıcılığının inkişaf etdirilməsi məqsədilə yerli sənətkarların və yaxud həvəskarların müxtəlif sahələr üzrə fərdi yaradıcılıqlarına geniş yer verilmişdir. Xalq yaradıcılığının müxtəlif sahələri ilə məşğul olan sənətkarlara dövlət tərəfindən böyük diqqət göstərilir, onların fərdi yaradıcılıq sərgiləri təşkil olunur, sərgi-satış yarmarkalarında yaradıcılıq nümunələrinin satışı üçün şərait yaradılır. Xüsusilə xalçaçılıq ənənələrinin inkişaf və davam etdirilməsi məqsədilə həm eyniadlı kursların təşkili, həm də evlərdə dövlət dəstəyi hesabına xalça toxunması işləri bu qədim el sənətinin yaşadılmasına böyük töhfə verməkdədir.

2012-ci ilin muxtar respublikada "Milli dəyərlər ili" elan olunması isə xalqımızın dərin köklərə bağlı dəyərlərinə kompleks yanaşmanı ortaya qoymuşdur. Məhz "Milli dəyərlər ili"ndə muxtar respublikamızda həyata keçirilən tədbirlərin miqyası və əhatə dairəsi daha da genişlənmiş, milli dəyərlərin bərpası, qorunması və gələcək nəsillərə çatdırılması ilə bağlı əvvəlki illərdən başlanmış tədbirlərə diqqət daha da artırılmışdır. Ümumilikdə, həmin ildə milli dəyərlərin təbliği məqsədilə muxtar respublikanın mədəniyyət müəssisələrində 50-yə yaxın konfrans, dəyirmi masa, seminar, disput və digər mədəni-kütləvi tədbirlər keçirilmiş, 20-dək sərgi təşkil edilmiş, milli dəyərlərimizin müxtəlif sahələrinə aid yeni kitablar nəşr olunmuşdur. Ötən həftə Naxçıvan şəhərində xalq yaradıcılığı sərgisinin təşkil edilməsi də muxtar respublikada milli dəyərlərə göstərilən böyük diqqətin təcəssümü idi. Sərgidə çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri milli dəyərlərimizin qorunmasının və yaşadılmasının vacibliyini vurğulayaraq demişdir: ***"Milli köklərə, milli dəyərlərə qayıdış hər kəsi düşündürməlidir. Biz bu gün milli dəyərlərimizi, adət-ənənələrimizi qoruyub-yaşatmaqla, xalq yaradıcılığı sahələrinə yeni həyat verməklə, əslində, milli kimliyimizi qoruyuruq. Ona görə də hər bir rayonun, kəndin milli dəyərlər sistemi ardıcıl öyrənilməli, qədim sənətkarlıq sahələri üzə çıxarılmalı, unudulmaqda olan dəyərlər bərpa olunmalı, el sənətkarlarının fəaliyyətinə dəstək verilməlidir. Heç şübhəsiz ki, bu gün sahib olduğumuz ən ali dəyərimiz milli dövlətçiliyimizdir. Xalqımızın sabitlik və rifah içində yaşamasıdır. Ona görə də milli-mədəni irsimizə qayğı göstərməklə yanaşı, dövlət müstəqilliyimizin də qədrini bilməli, onu qorumalı, ölkəmizin inkişafı və tərəqqisi yolunda çalışmalıyıq".***

Bəli, müasir qloballaşma dövründə milli dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi cəmiyyətimizin qarşısında duran ən mühüm məsələdir. Bu gün dünya dövlətlərinin təsnifatına baxsaq, hərtərəfli inkişaf etmiş ölkələrlə bərabər, geridə qalan ölkələri də görəcəyik. Niyə dövlətlər arasında belə ciddi fərqlər yaranıb? Diqqət etsək, yüksək inkişaf etmiş dövlətlərin öz milli dəyərlərinə söykəndiyini görərik. Bu gün Amerika Birləşmiş Ştatları amerikan ideologiyasına və yaxud Böyük Britaniya Britaniya milli ənənələrinə söykənərək dünyanın inkişaf etmiş ölkələrinə çevriliblər. Ona görə də ulu öndər Heydər Əliyev hər zaman gənc nəslin milli ruhda tərbiyə olunmasını əsas vəzifə kimi irəli sürmüşdür: ***"Gənclərimiz milli ruhda tərbiyə olunmalıdır, bizim milli-mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz".***

***Bu gün Naxçıvanda milli dəyərlərə münasibət strateji məsələ kimi qarşıya qoyulub və gələcək nəslin təlim-tərbiyəsi də bu konsepsiyanın əsas hədəfini təşkil edir. Buna görə də Naxçıvanda xalqımıza məxsus dəyərlərin milli kulturoloji baza üzərində inkişafı gələcəkdə onun dünya mədəni irsinə əvəzsiz töhfə verəcəyinə də şübhə yeri qoymur.***

**Səbuhi HƏSƏNOV**

# Nuh Peyğəmbərin möhtəşəm vətəni

## *Naxçıvana səfər etmiş almaniyalı turistlərdən ibarət qrupun təəssüratları*

*19-20 sentyabr 2015-ci il tarixdə turist bələdçisi Həsən Paşalının müşayiəti ilə Stefan Jakob Wimmerin rəhbərlik etdiyi almaniyalı alimlərdən ibarət bir qrup Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Stefan Jakob Wimmer Almaniyanın Münxen şəhərində fəaliyyət göstərən **"İbrahim Peyğəmbərin Dostları"** cəmiyyətinin sədridir və onun rəhbərlik etdiyi alman turist qrupu Naxçıvanda olan əsas arxeoloji ərazilərdə olmuşdur. Naxçıvanda səfərdə olduğu müddətdə o, "Şərq qapısı" qəzetinə müsahibə də vermişdir. Stefan Jakob Wimmer ölkəsinə qayıtdıqdan sonra Naxçıvan Muxtar Respublikası, bu ərazinin zəngin tarixi, mədəniyyəti və arxeologiyası ilə bağlı təəssüratlarını yazmışdır.*



***Stefan Jakob Wimmerin təəssüratları:***

"Gözlənilməz kəşf: Naxçıvan diyarı möhtəşəm mədəniyyət, dini memarlıq və ecazkar məqbərə qüllələri ilə zəngindir. 26 metr hündürlüyü olan və üzəri həndəsi naxışlarla bəzədilmiş Möminə xatın türbəsini gördükdə sanki yuxu gördük. XII əsrdə yaşamış və burada dəfn edilmiş ana üçün inşa edilmiş bu məhəbbət abidəsi "Min bir gecə" nağıllarını canlandırır. Bütün bunlar dünya tarixi və bəşəriyyət üçün əvəzolunmaz dəyərlərdir.

Almaniyanın Münxen şəhərindən təyyarə ilə İstanbuldan keçməklə 3 saatlıq fərq ilə Naxçıvana səyahət edirdik. Naxçıvan şəhərinə səyahət bizə bir az qeyri-real görsənsə də, burada bir neçə məqamı qeyd etmək yerinə düşərdi. Belə ki, şəhər düz və geniş küçələri ilə fərqlənir. Həftəsonu şəhərdə avtomobil sıxlığı az idi. Müasir və çoxşaxəli geniş tikinti işləri açıq-aşkar əraziyə maliyyə axınından xəbər verirdi. Burada sovet irsinə aid tikinti qalıqları da mövcud idi. Biz anlayırdıq ki, bu ərazi çox onilliklər boyu ciddi şəkildə təcrid edilmişdir".

Stefan Jakob Wimmer və onunla birlikdə Naxçıvana səfər edən turistlər beşulduzlu "Təbriz" hotelində qalmışdılar. Bu hotel də tanınmış alman turistlərin diqqətini cəlb edib: "Parlaq mavi şüşə üzlüyün arxasında dayanan 13 mərtəbəli bina bugünkü dövr üçün ecazkar binalardan idi və parlayan iqtisadi gələcəkdən xəbər verirdi. Bizim üçün "Təbriz" hoteli qalmaq üçün gözəl yer idi və təəssüflənirəm ki, bizim burada vaxtımız az oldu. Sentyabrın 19-da səhər tezdən Naxçıvana çatdıq və növbəti gün buranı tərk etdik".

Stefan Jakob Wimmer bildirir: "Azərbaycan Respublikasının muxtar




ərazisi barəsində bizim çox az məlumatımız var idi. Biz qərara aldıq ki, Xəzər dənizi, Qafqaz və Ağrı dağı arasındakı bölgəyə səfərimizi Naxçıvandan başlayaq. Bizim əksəriyyətimiz "İncil" kitabında adıçəkilən Ağrı dağını görmüş və yaxud həmin dağa qalxmışdıq. Naxçıvandan həmin dağı görmək üçün ümidlərimiz real oldu. Nuh Peyğəmbərin türbəsi XXI əsrdə bərpa olunan qalanın arxasından göründü".

Stefan Jakob Wimmer həmçinin Naxçıvana səfəri zamanı regionun digər ölkələrinə təsir edən və qonşu ölkələrə yeni inkişaf istiqamətləri gətirən Naxçıvan memarlığını diqqətlə müşahidə etmişdir. Bu kontekstdə o yazırdı: "Nuh türbəsinin yeraltı məzarı balaca bir açıq yol



vasitəsi ilə yuxarıda olan türbənin daxilinə açılır. Türbənin daxili böyük deyil və içəridə hər hansı digər otaq, mərtəbə, yaxud pilləkən yoxdur. Türbənin daxili, sadəcə, dəyirmi və konusvarıdır".

Stefan Jakob Wimmer fikirlərini aşağıdakı qeydlərlə bitirmişdir: "Qonşu dövlətlər arasında sıxışan bu balaca respublika Azərbaycandan ayrı düşmüşdür və səyahətçilər bu möhtəşəm ərazidə hərəkət edərkən hər yerdə sərhədlərin yaxınlığını hiss edirlər. Şimal istiqamətdə biz Duzdağ şaxtası sanatoriyasını və Qarabağlar kəndində yerləşən üzəri həndəsi naxışlarla bəzədilmiş, ərəb kalliqrafiyası ilə "La ilahə İll-allah, Muhammadu rasulullah" sözləri yazılmış Cahan Kudi xatın türbəsini görməkdən heyran olduq. Sonra biz cənub istiqamətdə olan Əshabi-Kəhf ziyarətgahına getdik. Ziyarət etmək üçün bura çoxlu hacılar gəlmişdi və bu dağın möhtəşəm təbii ərazidə yerləşməsi tək Allaha inanan mağara sakinləri üçün həqiqi dramatik bir səhnə yaratmışdır. Əsas odur ki, yalnız Allah sonra nə baş verəcəyini bilir. Növbə artıq İrana getmək üçün Culfa sərhəd-keçid məntəqəsinə gəldi. Bizim üçün Naxçıvan səfəri Azərbaycanda olan ilk təcrübə üçün gözəl bir nəticə idi. Növbəti gecəni biz gözəl "Təbriz" hotelində yox, həqiqi Təbriz şəhərində olan hoteldə keçirəcəyik. Biz İranın Azərbaycan vilayətlərində olduqdan sonra səfərimizi Astaradan keçməklə Bakıda – qədim və müasir "Odlar yurdu" diyarında davam etdirəcəyik. Bu isə başqa bir hekayədir".

**Peter TASE**
**02.11.2015**
**Amerika Birləşmiş Ştatlarının "Foreignpolicynews" və "Eurasiareview" qəzetləri**

## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüşlər davam etdirilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası məqsədilə Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin əməkdaşlarının Naxçıvan Dövlət Universitetinin Tərcümə (ərəb – Azərbaycan dilləri) ixtisası üzrə təhsil alan tələbələri ilə görüşü keçirilib.***

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsinin dekanı, dosent Qurban Qurbanlı muxtar respublikada ali təhsilin inkişafından, tədrisin müasir səviyyədə qurulması istiqamətində görülən işlərdən bəhs edib. Dekan bu fakültədəki ixtisaslar, Şərq dilləri və ədəbiyyatı kafedrası haqqında məlumat verib.

Naxçıvan Muxtar Respublikasının Dini Qurumlarla İş üzrə İdarəsinin rəisi Vüqar Babayev çıxışında vurğulayıb ki, muxtar respublikamızda dini tolerantlıq mövcuddur, dini bayramlar və ayinlər burada yüksək səviyyədə qeyd edilir, ziyarətgah və məscidlər təmir və ya bərpa olunaraq əhalinin ixtiyarına verilir. Muxtar respublika ərazisində 209 məscid, 16 dini icma, 750 din xadimi fəaliyyət göstərir. 2014-cü il avqustun 20-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə muxtar respublikada dövlət orqanlarının dini qurumlarla qarşılıqlı fəaliyyətinin təmin edilməsi, multikulturalizm və dövlətdin münasibətlərinin daha dolğun tənzimlənməsi məqsədilə multikulturalizm və dini məsələlər üzrə komissiyalar yaradılıb. Muxtar respublikada İslam dini üzrə ixtisaslı kadrların hazırlanması üçün 2015-ci ildə "Naxçıvan" Universitetində Dinşünaslıq ixtisası açılıb.

Vüqar Babayev tələbələrin Dini Qurumlarla İş üzrə İdarənin əməkdaşları ilə görüşlərinin təşkil olunması, sərəncamdan irəli gələn vəzifələrin həyata keçirilməsi ilə bağlı görüləcək digər işlər barədə məlumat verib, müəllim və tələbələrin suallarını cavablandırıb.

**Mehriban SULTAN**

## Audio kitabxananın fəal dinləyiciləri mükafatlandırılıblar

Muxtar respublikada görmə məhdudiyyəti olan şəxslərin sosial reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası daim diqqət mərkəzindədir. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində bu kateqoriyadan olan şəxslərə informasiya sahəsində bilik və bacarıqlar aşılanır, brayl əlifbasının tədrisi üzrə kurs keçilir, hər ay "Könül işığı" adlı brayl jurnalı nəşr edilir, habelə audio kitabxana xidməti göstərilir. Görmə məhdudiyyəti olan şəxslər mərkəzdə qeydiyyatdan keçdikdən sonra sabit telefonla "258" nömrəsinə zəng etməklə mərkəzin kitabxanasında olan audiokitabları dinləyirlər. Kitabxananın kataloqu daim yeni ədəbiyyatlarla zənginləşdirilir. Bu kateqoriyadan olan dinləyicilərə göstərilən xidmətin həcminin artırılması istiqamətində də tədbirlər həyata keçirilir. Hazırda poeziya, xarici ədəbiyyat, audiotamaşa, folklor, milli musiqi və digərləri olmaqla, ümumilikdə, 15 bölmə üzrə xidmətlər göstərilir. Bu günə qədər audio kitabxanada muxtar respublika üzrə 486 görmə məhdudiyyətli şəxs qeydiyyatdan keçib. Mərkəzin audio kitabxanasında 917 audiokitab mövcuddur.

13 noyabr – Beynəlxalq Gözdən Əlillər Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən görmə qabiliyyəti məhdud şəxslərin iştirakı ilə tədbirlər təşkil edilir. Noyabrın 11-də Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio kitabxananın fəal dinləyicilərinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə 5 nəfər görmə məhdudiyyəti olan fəal dinləyiciyə hədiyyələr təqdim edilib. Tədbir iştirakçıları göstərilən qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

## Naxçıvan şəhər məktəblilərinin kompleks tibbi müayinələri başa çatıb

*Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq, hər il yaz və payız mövsümlərində tam orta məktəblərin şagirdləri arasında profilaktika xarakteri daşıyan dərin tibbi yoxlamalar aparılır.*

Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının həkim briqadası oktyabrın 12-dən start götürən payız mövsümünün dərin tibbi müayinələrini başa çatdırıb. Naxçıvan şəhərinin 20 tam orta məktəbində 10 min 485 şagird tibbi yoxlamadan keçirilib ki, bu da şəhər məktəblilərinin 96 faizini təşkil edir. 1283 oftalmoloji, 374 LOR, 273 nevroloji, 102 cərrahi, 33 dermato-veneroloji, 171 endokrinoloji, 179 pediatrik və digər xəstəliyə meyilli uşaq qeydə alınıb.

Aparılan müayinələr bəzi nəticələr çıxarmağa imkan verib. Belə ki, oftalmoloji müayinələr nəticəsində şagirdlər arasında ən çox miopiya (yaxındangörmə), stomatoloji müayinələrdə ortodentik, digər ixtisasyönümlü müayinələrdə bəzi şagirdlərdə nitq qüsurları, konstisional piylənmə, xroniki tonzillit, adenoidlər, burun çəpərində əyriliklər, revmatizm xəstəlikləri aşkar olunub.

Əlbəttə, bunlar hələ ilkin tibbi müayinələrin nəticələrini əks etdirir. Əvvəlki illərdə olduğu kimi, həmin şagirdlər dispanser qeydiyyatına götürülərək Mərkəzi Uşaq Xəstəxanasına dəvət olunur, daha ətraflı və dərin müayinədən keçirilir, xəstəliyi dəqiqləşdirilən şagirdlər üçün müvafiq konsultasiyalar, eləcə də lazımi müalicə tədbirləri təşkil olunur. Bütün bunlar xəstəliklərin vaxtında müayinə və müalicəsi üçün çox faydalıdır.

Muxtar respublikanın rayonlarında isə şagirdlərin dərin tibbi müayinələri davam etdirilir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*İdman*

## Güləşçilər üçün seminarlar keçirilir



*Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Güləş Federasiyasının təşkilatçılığı ilə keçirilən seminarlar davam etdirilir.*

Noyabrın 10-da Naxçıvan şəhərində, noyabrın 11-də isə Şərur rayonunda belə seminarlar təşkil olunub.

Naxçıvan şəhərindəki İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində keçirilən seminarda məktəbin 50-dən artıq güləşçisi iştirak edib. Daha sonra seminar Şərur rayonunda keçirilib.

Seminarlarda beynəlxalq dərəcəli idman ustası, Azərbaycanın gənclərdən ibarət yığma komandasının baş məşqçisi Əsgərxan Novruzov, kiçikyaşlı yeniyetmələrin baş məşqçisi, idman ustası Elşad Allahverdiyev və gənclərdən ibarət yığma komandanın baş məşqçisinin köməkçisi, idman ustası Rövşən Hacıyev idmançılara güləş idman növünün taktiki-texniki xüsusiyyətləri, yeni qaydaları barədə ətraflı məlumat veriblər. Bildirilib ki, belə seminarların keçirilməsinin əsas səbəbi beynəlxalq qaydaların dəyişməsi ilə bağlıdır. Belə ki, beynəlxalq idman qurumları qaydalarda dəyişiklik etdikdən sonra ölkə daxilində fəaliyyət göstərən federasiyalara yeni qaydalar haqqında məlumat verirlər. Məşqçilər isə, öz növbəsində, seminarlar təşkil etməklə idmançılara yeni qaydalar barədə izah verir, onları taktiki-texniki baxımdan məlumatlandırırlar.

Keçirilən seminardan sonra həmsöhbət olduğumuz Əsgərxan Novruzov dedi: "Mən güləş karyerama məhz Naxçıvanda başlamışam. Uzun illər burada güləşin sirlərini öyrənmişəm. Bizim dövrümüzdə bu idman növünə o qədər də maraq göstərilmirdi. Səbəbi isə şəraitin olmaması idi. Lakin indi uşaq və yeniyetmə güləşçilərin püxtələşməsi, peşəkar olması üçün hərtərəfli şərait yaradılıb. Məşqlərdə də gördüm ki, muxtar respublikada istedadlı idmançılar çoxdur və onlar peşəkar güləşçi kimi yetişirlər. Uşaqlar fiziki baxımdan mükəmməl hazırlaşırlar. Onlar yarış təcrübələri artırmağa gələcəkdə Azərbaycan yığmasının da şərəfini qorumağa qadirdilər".

Elşad Abdullayev isə bizimlə söhbətində seminarın mahiyyətindən danışdı: "Belə seminarların keçirilməsi böyük əhəmiyyət kəsb edir. Çünki güləşin qaydaları tez-tez dəyişir və bunu güləşçilərə çatdırmaq vacibdir. Keçirdiyimiz seminarlarda istedadlı uşaqların adlarını qeyd etmişik və federasiya rəsmilərinə də bildirmişik. Məqsədimiz millinin məşq proseslərini azca da olsa, Naxçıvanda güləşlə məşğul olan uşaqlara aşılamaqdır. Yaradılan şəraitə baxıb deyə bilərəm ki, gələcəkdə Naxçıvan güləşçiləri daha böyük uğurlar əldə edəcəklər".

İdman ustası Rövşən Hacıyev də seminarlarla bağlı fikirlərini bildirdi: "Bu gün muxtar respublikada uşaqların bu sahə ilə peşəkar səviyyədə məşğul olmaları üçün hər bir şərait var. Elə apardığımız seminarlar bunu bir daha təsdiq edir. Keçirilən belə seminarları gələcəkdə də davam etdirəcəyik".

Bununla yanaşı, Güləş Federasiyası uşaq və yeniyetmə güləşçilər üçün ustad dərsləri də təşkil edib. Dərslərdə məşqçi-müəllim kimi Naxçıvan güləş məktəbinin yetirməsi, sərbəst güləş üzrə ikiqat dünya çempionu, Azərbaycan güləş tarixində ilkə imza atmış Hacı Əliyev iştirak edib. O, məşqlər zamanı öz karyerasında qazandığı təcrübəsini bu idman növünə marağı olan uşaq və yeniyetmə güləşçilərə aşılamağa çalışıb və onlara öz tövsiyələrini verib.

Qeyd edək ki, seminarlar noyabr ayının 15-nə kimi davam edəcək.

## Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş idman yarışları

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin qız tələbələri arasında 10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş badminton üzrə birincilik keçirilib.*

Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondu, Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, ali və orta ixtisas müəssisələrinin təşkilatçılığı ilə keçirilən yarış Naxçıvan Dövlət Universitetinin (NDU) İdman Kompleksində baş tutub.

20-yə yaxın idmançının birincilik uğrunda mübarizə apardığı yarışda NDU-nun yetirmələri ilk üç pillədə qərarlaşıblar. Belə ki, Zərövşən Yusifəliyeva bütün rəqiblərini məğlub edərək qalib adını qazanıb. O, həlledici görüşdə Ezgi Ceylanı məğlub edib. Üçüncü yerə isə universitetin digər tələbəsi Sibel Yıldız çıxıb.

* * *

10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsinə həsr olunmuş Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin oğlan və qız tələbələri arasında şahmat turniri təşkil edilib.

60-a yaxın zəka sahibinin mübarizə apardığı turnir olimpiya sistemi üzrə keçirilib. Oğlanların mübarizəsində Naxçıvan Dövlət Universitetinin tələbələrindən Toğrul Həsənzadə bütün rəqiblərini qabaqlayaraq turnirin qalibi olub, Mehdi Mehdizadə və Hüseyn Həsənov isə digər iki pillədə qərarlaşıblar.

Qızların mübarizəsində isə Naxçıvan Dövlət Universitetinin tələbəsi Röya Müslümzadə birinci yerə layiq görülüb. Naxçıvan Dövlət Texniki Kollecinin tələbəsi Zəhra Quliyeva ikinci, Naxçıvan Tibb Kollecinin tələbəsi Şərqiyə Zərgərli isə üçüncü olub.

## Yoldaşlıq görüşündə "Naxçıvan" komandası qalib gəlib

***Dünən Şərur Olimpiya-İdman Kompleksində 12 Noyabr – Konstitusiya Gününə həsr olunmuş karate-do üzrə Naxçıvan şəhər və Şərur rayon komandaları arasında yoldaşlıq görüşü keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin tədbirlər planına uyğun olaraq, Karate-do Federasiyası ilə Şərur Rayon Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi görüşdə 10 yaş qrupu üzrə (8, 9, 10, 11, 12, 13, 14, 15, 16, 17) 60-dan çox idmançı mübarizə aparıb.

Yarışın yekun nəticəsinə əsasən, "Naxçıvan" komandası şərurlu həmkarlarını 6:4 hesabı ilə məğlub edib.



Sonda qalib idmançılara təşkilatçılar tərəfindən diplomlar təqdim olunub.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyində
### *icra məmuru vəzifələrinə işə qəbulla əlaqədar müsabiqənin vaxtı uzadılmışdır*

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Azərbaycan Respublikası Prezidentinin 2007-ci il 13 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq, icra məmuru vəzifələrinə müsabiqə elan etmişdir. Müsabiqədə iştirak etmək istəyənlərin nəzərinə çatdırılır ki, sənədlərin qəbulu 2016-cı il yanvar ayının 10-dək uzadılmışdır. İcra məmuru vəzifələrinə ali hüquq təhsilli, 30 yaşınadək olan Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar. İcra məmuru vəzifələrinə işə qəbulla bağlı müsabiqədə iştirak etmək istəyən namizədlər 2 ədəd arxası ağ fonda 3x4 sm ölçüdə rəngli fotoşəkil təqdim etməklə müraciət formasını doldurmaq üçün Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinə müraciət edə bilərlər.

***Əlavə məlumatlar almaq üçün 545-00-69; 545-22-30 nömrəli telefonlar vasitəsilə müraciət etmək olar***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Sara Əzimova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 851